*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2013-cü il 18 iyun tarixli 6/40 saylı Qərarı ilə təsdiq edilmiş və 2022-ci il 27 may tarixli* 2/8 saylı *Qərarı ilə dəyişiklik edilmişdir.*

Razılaşdırılmışdır:

Azərbaycan Respublikası
Mərkəzi Bankının sədri

______________________E.S.RÜSTƏMOV

Azərbaycan Respublikası
Mərkəzi Seçki Komissiyasının sədri

______________________ M.M.PƏNAHOV

# Azərbaycan Respublikasının Prezidenti seçkilərinin hazırlanmasına və keçirilməsinə dövlət büdcəsindən ayrılan maliyyə vəsaitlərinin seçki komissiyaları arasında bölüşdürülməsi, göstərilən vəsaitlərdən təyinatı üzrə istifadəyə nəzarət edilməsi qaydaları haqqında

# T Ə L İ M A T

Bu Təlimat Azərbaycan Respublikası Prezidenti seçkilərinin hazırlanması və keçirilməsinin dövlət büdcəsi vəsaitləri hesabına maliyyələşdirilməsi, bu məqsədlə ayrılmış vəsaitlər üzərində seçki komissiyalarının sərəncam verməsi, vəsaitlərdən istifadə haqqında hesabatların təqdim olunması qaydalarını müəyyənləşdirir.

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikasının Prezidenti seçkilərinin (bundan sonra – seçkilərin) hazırlanmasına və keçirilməsinə dövlət büdcəsindən ayrılan maliyyə vəsaitlərinin seçki komissiyaları arasında bölüşdürülməsi və həmin vəsaitlərdən təyinatı üzrə istifadəyə nəzarət edilməsi ilə bağlı münasibətlər Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 89-cu, 96-cı, 97-ci maddələri, “Büdcə sistemi haqqında” Azərbaycan Respublikasının Qanunu və bu Təlimatla tənzimlənir.

1.2. Seçkilərin hazırlanması və keçirilməsi, seçki komissiyalarının səlahiyyət müddətində onların fəaliyyətinin təmin edilməsi xərcləri dövlət büdcəsi hesabına həyata keçirilir.

1.3. Maliyyə vəsaitlərinin təyinatı üzrə xərclənməsinə qanunvericiliklə müəyyən olunmuş qaydada müvafiq seçki komissiyasının nəzarət-təftiş xidməti nəzarət edir.

1.4. Seçkilərin hazırlanması və keçirilməsi üçün ayrılmış büdcə vəsaitinin uçotu seçki komissiyaları tərəfindən aparılır.

## 2. Maliyyə vəsaitlərinin seçki komissiyaları arasında bölüşdürülməsi

2.1. Seçkilərin hazırlanması və keçirilməsi, seçki komissiyalarının səlahiyyət müddətində onların fəaliyyətinin təmin edilməsi üçün ayrılmış maliyyə vəsaitləri dövlət büdcəsindən qanunvericiliklə müəyyən olunmuş qaydada Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (bundan sonra – Mərkəzi Seçki Komissiyası) bank hesabına köçürülür.

2.2. Mərkəzi Seçki Komissiyasına daxil olmuş pul vəsaitləri səsvermə gününə ən geci 35 gün qalmış dairə seçki komissiyalarına köçürülür, onlar isə öz növbəsində bu vəsaiti səsvermə gününə ən geci 10 gün qalmış məntəqə seçki komissiyaları arasında bölüşdürür.

2.3. Pul vəsaitləri seçki komissiyaları arasında onların əhatə etdiyi hər bir ərazinin inzibati, demoqrafik və sosial-iqtisadi göstəriciləri, coğrafi mövqeyi və iqlim şəraiti nəzərə alınmaqla bölüşdürülür.

2.4. Seçki komissiyalarının sədrləri müvafiq seçki komissiyalarına ayrılmış pul vəsaitlərinin sərəncamçılarıdırlar.

2.5. Seçkilərin hazırlanmasına və keçirilməsinə dövlət büdcəsindən ayrılan maliyyə vəsaitlərinin seçki komissiyaları arasında bölüşdürülməsi ilə əlaqədar məsələlərin komissiyaların iclasında müzakirə edilməsi, maliyyə sənədlərinin seçki komissiyasının qərarlarına uyğunluğu, məsrəflər haqqında maliyyə hesabatlarının Seçki Məcəlləsi ilə müəyyənləşdirilmiş qaydada və müddətdə təqdim edilməsi üçün müvafiq seçki komissiyasının sədri şəxsən məsuliyyət daşıyır.

2.6. Seçki komissiyaları tərəfindən xərclənməmiş dövlət vəsaiti seçki günündən ən geci 60 gün keçənədək dairə və məntəqə seçki komissiyalarının hesabından Mərkəzi Seçki Komissiyasının hesabına köçürülür və onun hesabında qalır. Bu vəsaitlər üzrə əməliyyatlar Azərbaycan Respublikasının "Büdcə sistemi haqqında" Qanunun 19.5-ci maddəsinin tələbləri gözlənilməklə həyata keçirilir.

## 3. Maliyyə vəsaitlərinin uçotu, maliyyə hesabatlarının (məlumatının) hazırlanması və təqdim edilməsi

3.1. Seçkilərin hazırlanması və keçirilməsi üçün dairə və məntəqə seçki komissiyalarına ayrılmış büdcə vəsaitinin uçotu Mərkəzi Seçki Komissiyası tərəfindən maliyyə hesabatı formalarına uyğun olaraq ayrı-ayrılıqda aparılır.

3.2. Dairə seçki komissiyaları dairə və məntəqə seçki komissiyalarının seçkilərlə bağlı təsdiq olunmuş smetalarına uyğun surətdə həyata keçirilmiş xərclərin icrasının uçotunu hər bir xərc maddəsi üzrə aparır.

3.3. Mərkəzi Seçki Komissiyasının, dairə və məntəqə seçki komissiyalarının maliyyə hesabatları "Azərbaycan Respublikasının vahid büdcə təsnifatının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 11 oktyabr tarixli 440 nömrəli Qərarına uyğun tərtib olunur (Təlimata 1 saylı əlavə).

3.4. Məntəqə seçki komissiyaları dövlət büdcəsindən ayrılmış vəsaitin daxil olması və xərclənməsi barədə dairə seçki komissiyasına səsvermə günündən sonra 5 gün müddətində bu Təlimatın 1 saylı əlavəsinə uyğun olaraq maliyyə hesabatı təqdim edir. Hesabat komissiyanın iclasında müzakirə edildikdən sonra məntəqə seçki komissiyasının sədri tərəfindən təsdiq edilir.

3.5. Dairə seçki komissiyası dövlət büdcəsindən ayrılmış vəsaitin daxil olması və xərclənməsi barədə Mərkəzi Seçki Komissiyasına səsvermə günündən sonra 10 gün müddətində bu Təlimatın 1 saylı əlavəsinə uyğun olaraq maliyyə hesabatı təqdim edir. Hesabat komissiyanın iclasında müzakirə edildikdən sonra dairə seçki komissiyasının sədri tərəfindən təsdiq edilir.

3.6. Dairə seçki komissiyası seçkilərin nəticələrinin rəsmi dərc edildiyi tarixdən başlayaraq 10 gün müddətində bu Təlimatın 1 saylı əlavəsinə uyğun olaraq məntəqə seçki komissiyalarının icmal hesabatlarını və dairə seçki komissiyasının hesabatlarını komissiyanın sədri və yerli xəzinədarlıq idarəsinin rəhbərliyi tərəfindən təsdiq olunmaqla, Mərkəzi Seçki Komissiyasına təqdim edir.

3.7. Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikasının Prezidentinə, Milli Məclisə və kütləvi informasiya vasitələrinə büdcə vəsaitlərinin istifadəsi, namizədlərin, qeydə alınmış namizədlərin seçki fondlarının vəsaitinin xərclənməsi barədə seçkilərin ümumi nəticələrinin rəsmi dərci günündən sonra 3 ay müddətində məlumat təqdim edir. Göstərilən maliyyə hesabatı və məlumatlar Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycan Respublikasının Milli Məclisinə təqdim edildiyi gündən başlayaraq 1 ay müddətində Mərkəzi Seçki Komissiyasının rəsmi mətbuat orqanında dərc edilməlidir.

## 4. Yekun müddəalar

4.1. Bu Təlimat qüvvəyə mindiyi gündən Mərkəzi Seçki Komissiyasının 4 iyul 2008-ci il tarixli 6/23-9 saylı Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Prezidenti seçkilərinin hazırlanmasına və keçirilməsinə dövlət büdcəsindən ayrılan maliyyə vəsaitlərinin seçki komissiyaları arasında bölüşdürülməsi, göstərilən vəsaitlərdən təyinatı üzrə istifadəyə nəzarət edilməsi qaydaları haqqında” Təlimat qüvvədən düşmüş hesab edilir.

*Təlimata 1 saylı əlavə*

*Azərbaycan Respublikasının Prezidenti*
*seçkilərinin keçirilməsi ilə bağlı*

______________________________________________

*(hesabatı təqdim edən seçki komissiyasının adı)*

seçki komissiyası xərclərinin

**MALİYYƏ HESABATI**

***(manatla)***

| | Xərclərin iqtisadi təsnifatı | Smeta üzrə təsdiq edilib | Maliyyələşdirilib | Faktiki xərclər | Qalıq |
|---|---|---|---|---|---|
| **1** | **2** | **3** | **4** | **5** | **6** |
| | **Xərclərin cəmi:** | | | | |
| | o cümlədən: | | | | |
| ***210000*** | ***Əməyin ödənişi*** | | | | |
| ***211000*** | ***Əməkhaqqı*** | | | | |
| 211100 | Ştatda olan işçilərin əməkhaqqı | | | | |
| 211200 | Ştatdankənar işçilərin əməkhaqqı | | | | |
| 211900 | Əməyin ödənişi ilə bağlı digər pul ödənişləri | | | | |
| ***212000*** | ***Əməkhaqqına görə ayırmalar*** | | | | |
| 212100 | Məcburi dövlət sosial sığorta haqları | | | | |
| 212200 | İcbari dövlət sığortası | | | | |
| 212400 | İşsizlikdən sığorta | | | | |
| ***220000*** | ***Malların (işlərin və xidmətlərin) satınalınması*** | | | | |
| ***221000*** | ***Malların satınalınması*** | | | | |
| 221100 | Dəftərxana və təsərrüfat xərcləri | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 221200 | Mətbəə məhsulları üzrə xərclər | | | | |
| 221300 | Yanacaq və sürtkü materiallarının alınması | | | | |
| 221900 | Digər malların alınması | | | | |
| ***222000*** | ***İş və xidmətlərin alınması*** | | | | |
| 222200 | Kommunal xidmətlərin haqqının ödənilməsi | | | | |
| 222210 | Elektrik enerjisi haqqının ödənilməsi | | | | |
| 222220 | Qaz haqqının ödənilməsi | | | | |
| 222230 | Su haqqının ödənilməsi | | | | |
| 222240 | Kanalizasiya xidmətləri haqqının ödənilməsi | | | | |
| 222250 | İstilik enerjisi (yanacaq) haqqının ödənilməsi | | | | |
| 222290 | Digər kommunal xidmətlərin haqqının ödənilməsi | | | | |
| 222300 | Rabitə xidmətləri haqqının ödənilməsi | | | | |
| 222310 | Telefon danışıq haqlarının ödənilməsi | | | | |
| 222311 | Ölkədaxili telefon danışıq haqlarının ödənilməsi | | | | |
| 222500 | Ezamiyyə xərcləri | | | | |
| 222510 | Ölkədaxili ezamiyyətlər | | | | |
| 222600 | Nəqliyyat vasitələri, istehsal təyinatlı maşın, avadanlıq və qurğular üzrə xidmət haqlarının ödənilməsi | | | | |
| 222900 | Digər iş və xidmətlərin haqqının ödənilməsi | | | | |
| 222940 | Bank və plastik kartların xərcləri | | | | |
| 222941 | Bank xidmətləri haqqının ödənilməsi | | | | |
| 222942 | Plastik kartların dəyəri və digər ödənişlər | | | | |

**Müvafiq seçki komissiyasının sədri:** ____________________ ________________________________

*(imza)* *(inisialı və soyadı)*